TƏLİMAT

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ TEC XƏTTİ İLƏ APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN MÖVZULARININ SEÇİLMƏSİ, TƏSDİQİ, TƏHKİM OLUNMASI VƏ İCRASININ TƏŞKİLİ QAYDALARI HAQQINDA

NDU-2026

TEC XƏTTİ İLƏ APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN MÖVZULARININ SEÇİLMƏSİ, TƏSDİQİ, TƏHKİM OLUNMASI VƏ İCRASININ TƏŞKİLİ QAYDALARI HAQQINDA TƏLİMAT

I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Təlimat tələbələrin elmi-tədqiqat fəaliyyətinin planlaşdırılması, tədqiqat mövzularının formalaşdırılması, müəllimlər tərəfindən təklif edilməsi, tələbələrə seçdirilməsi və ya təhkim olunması, elmi rəhbərliyin təşkili, tədqiqatların icrasına nəzarət, nəticələrin qiymətləndirilməsi və sənədləşdirilməsi qaydalarını müəyyən edir.

1.2. Təlimatın məqsədi tələbələrin müstəqil elmi araşdırma aparmaq, elmi problemləri müəyyənləşdirmək, müvafiq metodlardan istifadə etmək, əsaslandırılmış nəticələr əldə etmək və akademik dürüstlük prinsiplərinə riayət etmək bacarıqlarını inkişaf etdirməkdir.

1.3. Təlimat bakalavriat səviyyələrində həyata keçirilən tələbə elmi-tədqiqat işlərinə tətbiq edilir.

1.4. Bu Təlimat aşağıdakı prinsiplərə əsaslanır:

a) elmi əsaslılıq və tədqiqat keyfiyyəti;

b) akademik dürüstlük və etik məsuliyyət;

c) şəffaflıq, obyektivlik və bərabər imkanlar;

d) tələbənin elmi maraqlarının və fərdi inkişafının nəzərə alınması;

e) tədqiqatın müstəqilliyi və müəllif məsuliyyəti;

f) elmi rəhbərliyin sistemliliyi və hesabatlılıq;

g) məlumatların məxfiliyinin və şəxsi həyatın toxunulmazlığının qorunması;

h) rəqəmsal alətlərdən və süni intellekt texnologiyalarından məsuliyyətli istifadə;

i) nəticələrin yoxlanıla bilməsi, təkrar istehsal edilə bilməsi və praktiki əhəmiyyəti.

1.5. Elmi-tədqiqat işlərinin təşkili zamanı Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, elm və təhsil sahəsində müvafiq normativ-hüquqi aktları, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi "Ali təhsil müəssisəsində təhsilalanların elmi-tədqiqat işinin təşkili haqqında Əsasnamə"ni, Naxçıvan Dövlət Universitetinin Nizamnaməsini, Universitet Tələbə Elmi Cəmiyyətinin Əsasnaməsini və təsdiq edilmiş daxili normativ sənədlər rəhbər tutulur.

1.6. Bu Təlimatın tələbləri elmi-tədqiqat prosesində iştirak edən müəllimlər, elmi rəhbərlər, kafedra və fakültə rəhbərliyi, tələbələr və prosesə cəlb olunan digər məsul şəxslər üçün tətbiq edilir.

II. ƏSAS ANLAYIŞLAR

2.1. Tələbə elmi-tədqiqat işi — tələbənin müəyyən elmi və ya tətbiqi problemin müstəqil araşdırılmasına, müvafiq tədqiqat metodlarının tətbiqinə, əsaslandırılmış nəticələrin əldə edilməsinə və həmin nəticələrin elmi tələblərə uyğun təqdim edilməsinə yönəlmiş fəaliyyətidir.

2.2. Tədqiqat mövzusu — araşdırmanın istiqamətini, predmetini və əsas problemini müəyyən edən, məqsədi və əhatə dairəsi konkretləşdirilmiş elmi və ya tətbiqi problemin ifadəsidir.

2.3. Mövzu bankı — kafedra və ya müvafiq struktur bölmə tərəfindən hazırlanmış, elmi keyfiyyət, ixtisasa uyğunluq, tədqiqat imkanları və resurs təminatı baxımından nəzərdən keçirilmiş, tələbələrə seçim üçün təqdim olunan tövsiyə xarakterli tədqiqat mövzularının sistemləşdirilmiş toplusudur.

2.4. Elmi rəhbər — tələbənin tədqiqat mövzusunun dəqiqləşdirilməsinə, məqsəd və vəzifələrinin müəyyənləşdirilməsinə, metodologiyanın seçilməsinə, tədqiqatın planlaşdırılmasına, icrasına və nəticələrinin elmi baxımdan qiymətləndirilməsinə metodiki və elmi istiqamətləndirmə verən müvafiq akademik hazırlığa və ya elmi səriştəyə malik şəxsdir.

2.5. Ko-rəhbər — tədqiqatın mürəkkəbliyi, fənlərarası xarakteri və ya xüsusi metodoloji tələbləri nəzərə alınmaqla, əsas elmi rəhbərlə razılaşdırılmış qaydada tədqiqatın müəyyən istiqamətləri üzrə elmi və metodiki dəstək göstərən əlavə elmi rəhbərdir.

2.6. Köməkçi elmi rəhbər (mentor) — əsas elmi rəhbərin rəhbərliyi və onunla razılaşdırılmış çərçivədə tələbəyə tədqiqat bacarıqlarının inkişafı, metodologiyanın tətbiqi, texniki məsələlərin həlli və praktiki fəaliyyət üzrə dəstək göstərən şəxsdir.

2.7. Tədqiqat təklifi — tədqiqat problemini, mövzunun aktuallığını, məqsəd və vəzifələrini, tədqiqat suallarını və ya müvafiq hallarda hipotezləri, nəzərdə tutulan metodologiyanı, gözlənilən nəticələri, ilkin elmi mənbələri və tədqiqatın icrasına dair əsaslandırılmış yanaşmanı əks etdirən ilkin təşəbbüsdür.

2.8. Tədqiqat planı — tədqiqatın məqsəd və vəzifələrini, icra mərhələlərini, müddətlərini, aralıq nəticələrini, tələb olunan resursları və mümkün riskləri müəyyən edən, tələbə və elmi rəhbər tərəfindən razılaşdırılan iş sənədidir.
2.9. Aralıq hesabat — tədqiqatın müəyyən mərhələsi üzrə yerinə yetirilmiş işləri, əldə olunmuş nəticələri, mövcud çətinlikləri, yaranmış riskləri və növbəti mərhələ üçün nəzərdə tutulan tədbirləri əks etdirən hesabat sənədidir.
2.10. Kollektiv tədqiqat — iki və ya daha çox tələbənin əvvəlcədən müəyyən edilmiş və razılaşdırılmış iş bölgüsü əsasında ümumi tədqiqat məqsədinə nail olmaq üçün birgə həyata keçirdiyi elmi-tədqiqat fəaliyyətidir.
2.11. Fənlərarası tədqiqat — elmi problemin araşdırılması və ya həlli məqsədilə iki və ya daha çox elm sahəsinin bilik, yanaşma və metodlarından əlaqəli şəkildə istifadə edilməsinə əsaslanan tədqiqatdır.
2.12. Tədqiqat nəticəsi — araşdırma zamanı əldə edilən, elmi və ya tətbiqi baxımdan əsaslandırıla və yoxlanıla bilən nəticə, məlumat toplusu, təhlil, model, metodiki işləmə, proqram təminatı, prototip və ya digər elmi məhsuldur.
2.13. Akademik dürüstlük — elmi fəaliyyət zamanı müəllif hüquqlarına və töhfələrinə hörmət edilməsi, mənbələrin düzgün göstərilməsi, məlumatların və nəticələrin həqiqətə uyğun təqdim edilməsi, plagiat və digər akademik pozuntulara yol verilməməsi prinsiplərinin məcmusudur.
2.14. Tədqiqat etikası — tədqiqatın planlaşdırılması, aparılması, məlumatların toplanması və istifadəsi, nəticələrin təqdim edilməsi və yayılması zamanı qanunvericiliyə, etik prinsiplərə, iştirakçıların hüquqlarına və məxfilik tələblərinə riayət olunmasını nəzərdə tutan qaydalar və prinsiplər sistemidir.
2.15. Tədqiqat məlumatları — tədqiqat prosesində əldə edilən və ya istifadə olunan ilkin məlumatları, müşahidə və eksperiment qeydlərini, sorğu nəticələrini, ölçmə göstəricilərini, təhlil materiallarını, proqram kodunu və nəticələrin yoxlanılması üçün zəruri olan digər materialları əhatə edən məlumatlar toplusudur.
2.16. Elektron reyestr — tələbə elmi-tədqiqat işlərinin mövzuları, tələbələr, elmi rəhbərlər, təsdiq qərarları, icra vəziyyəti və yekun nəticələri barədə məlumatların müəyyən edilmiş qaydada sistemləşdirildiyi və uçotunun aparıldığı elektron informasiya toplusudur.
2.17. Apellyasiya — tələbənin tədqiqat işinin qiymətləndirilməsinin nəticəsi və ya müəyyən edilmiş prosedur çərçivəsində qəbul edilmiş qərarla bağlı əsaslandırılmış qaydada yenidən baxılma tələbi ilə müraciətidir.

III. TƏDQİQAT MÖVZULARININ FORMALAŞDIRILMASI

3.1. Hər bir kafedra və ya müvafiq struktur bölmə hər tədris ili üzrə tələbə elmi-tədqiqat işlərinin prioritet istiqamətlərini müəyyənləşdirir və mövzu bankının hazırlanmasını təşkil edir.
3.2. Mövzuların formalaşdırılması zamanı aşağıdakılar nəzərə alınmalıdır:
a) ixtisasın və təhsil proqramının təlim nəticələri;
b) müasir elmi və texnoloji inkişaf meyilləri;
c) milli və beynəlxalq elmi prioritetlər;
d) iqtisadiyyatın, cəmiyyətin və əmək bazarının aktual ehtiyacları;
e) müəssisənin elmi-tədqiqat prioritetləri;
f) mövcud elmi layihələr, laboratoriyalar və tədqiqat infrastrukturu;
g) fənlərarası tədqiqat imkanları;
h) tələbələrin elmi maraqları və hazırlıq səviyyəsi;
i) tədqiqatın real müddətdə və mövcud resurslarla icra edilə bilməsi.
3.3. Mövzular aktual, konkret, ölçülə bilən nəticələrə yönəlmiş və tələbənin təhsil səviyyəsinə uyğun olmalıdır.
3.4. Mövzu yalnız ümumi sahəni və ya geniş problemi ifadə etməməli, araşdırmanın sərhədlərini və gözlənilən elmi istiqamətini aydın göstərməlidir.
3.5. Mövzuların seçilməsində aşağıdakı meyarlar rəhbər tutulur:
1) elmi və ya praktiki problemin mövcudluğu;
2) problemin araşdırılma zərurəti;
3) mövcud elmi ədəbiyyatın və məlumatların əlçatanlığı;
4) uyğun tədqiqat metodlarının mövcudluğu;
5) gözlənilən nəticələrin elmi və ya tətbiqi dəyəri;
6) etik və hüquqi tələblərə uyğunluq;
7) tədqiqatın müəyyən edilmiş müddətdə başa çatdırılması imkanı.
3.6. Mövzuların təkrarına yol verilməməlidir. Eyni və ya oxşar mövzunun bir neçə tələbəyə verilməsi yalnız tədqiqat sualları, məqsədləri, metodologiyası və gözlənilən nəticələri aydın şəkildə fərqləndirildikdə mümkündür.
3.7. Fənlərarası mövzulara, innovativ yanaşmalara və praktiki problemlərin həllinə yönəlmiş tədqiqatlara üstünlük verilməsi tövsiyə olunur.
3.8. Fənlərarası və ya kompleks tədqiqat mövzularında (məsələn, hüquq və iqtisadiyyat, tibb və biotexnologiya və.s) tələbəyə iki fərqli kafedradan rəhbər (biri əsas, digəri isə məsləhətçi qismində) təyin edilə bilər.

3.9. Müəllim mövzu təklif edərkən onun elmi aktuallığını, tədqiqat üçün tələb olunan resursları, mümkün riskləri və tələbəyə verə biləcəyi metodoloji dəstəyi əvvəlcədən qiymətləndirməlidir.

IV. MÜƏLLİMLƏR TƏRƏFİNDƏN MÖVZULARIN TƏKLİF EDİLMƏSİ

4.1. Elmi rəhbərliyə namizəd olan hər bir müəllim kafedranın müəyyən etdiyi müddətdə tədqiqat mövzularını təqdim edir.

4.2. Hər bir mövzu aşağıdakı məlumatları əhatə edən standart formada təqdim olunmalıdır:

1) Mövzunun tam adı.
2) İxtisas və ya təhsil proqramı.
3) Mövzunun aktuallığının qısa əsaslandırılması.
4) Tədqiqat problemi və ilkin tədqiqat sualı.
5) Tədqiqatın məqsədi və əsas vəzifələri.
6) Təklif olunan tədqiqat metodları.
7) Gözlənilən nəticələr və mümkün tətbiq sahələri.
8) İlkin elmi mənbələr və məlumat bazaları.
9) Tələb olunan texniki, maliyyə və ya laboratoriya resursları.
10) Elmi rəhbərin adı, ixtisası və elmi istiqaməti.

4.3. Müəllim mövzunun adını elmi məzmunu əks etdirəcək şəkildə formalaşdırmalı, qeyri-müəyyən, həddindən artıq geniş və ya yalnız təsviri xarakter daşıyan ifadələrdən mümkün qədər çəkinməlidir.

4.4. Mövzunun təklif edilməsi onun avtomatik təsdiq edilməsi demək deyildir. Mövzular kafedra və ya səlahiyyətli struktur bölmə tərəfindən elmi keyfiyyət, uyğunluq və resurs imkanları baxımından nəzərdən keçirilir.

4.5. Müəllim eyni vaxtda mövzuların mürəkkəbliyini və digər tədris-elmi öhdəliklərini nəzərə almalıdır.

4.6. Elmi rəhbərlik yükü təhsil müəssisəsinin daxili normativləri ilə müəyyən edilir. Müəyyən edilmiş həddən artıq rəhbərlik yalnız əsaslandırılmış zərurət və səlahiyyətli şəxsin razılığı ilə mümkündür.

V. MÖVZULARA BAXIŞ VƏ TƏSDİQ

5.1. Təklif olunmuş mövzular kafedra müdiri və ya onun müəyyən etdiyi elmi-metodiki qrup tərəfindən ilkin baxışdan keçirilir.

5.2. Baxış zamanı aşağıdakılar qiymətləndirilir:

a) mövzunun ixtisasa uyğunluğu;
b) elmi problemin aydınlığı;
c) aktuallıq və yenilik potensialı;
d) məqsəd və vəzifələrin uyğunluğu;
e) metodologiyanın tətbiq edilə bilməsi;
f) resurs və zaman imkanları;
g) etik və hüquqi tələblər;
h) mövzunun digər tədqiqatlarla təkrarlanma riski.

5.3. Baxışın nəticəsi aşağıdakı qərarlardan biri ola bilər:

a) təsdiq üçün təqdim edilsin;
b) düzəlişlərdən sonra yenidən nəzərdən keçirilsin;
c) əsaslandırılmış səbəblərlə qəbul edilməsin.

5.4. Təsdiq edilmiş mövzular vahid halda elektron şəkildə TEC-in veb-saytında yerləşən reyestrinə daxil edilir.

5.5. Reyestrdə kafedranın adı, tələbənin adı, soyadı, ata adı, elmi rəhbərin adı, soyadı, ata adı, elmi dərəcəsi və elmi adı, mövzunun adı və aid olduğu elmi istiqamət, təsdiq tarixi kimi məlumatlar saxlanılır.

5.6. Təsdiqlənmiş mövzu və elmi rəhbər haqqında məlumat tələbəyə rəsmi qaydada bildirilir.

VI. ELMİ-TƏDQİQAT MÖVZULARININ SEÇİLMƏSİ

6.1. Mövzuların seçilməsi prosesi əvvəlcədən elan edilmiş müddətlər və şəffaf meyarlar əsasında təşkil edilir.

6.2. Tələbələrə təsdiqlənmiş mövzu bankı mövzular haqqında qısa məlumat və seçim qaydaları təqdim olunur.

6.3. Tələbə mövzunu öz elmi maraqlarına, ixtisasına, bilik və bacarıqlarına, gələcək peşə istiqamətinə və tədqiqat imkanlarına uyğun seçməlidir.

6.4. Mövzuların bölüşdürülməsində aşağıdakı ardıcıllığın tətbiqi tövsiyə olunur:

1) Mövzuların və seçim müddətinin elan edilməsi.
2) Tələbələrin seçim barədə kafedraya məlumat verməsi.
3) Seçimlərin və elmi rəhbərlərin iş yükünün yoxlanılması.
4) Zəruri olduqda tələbələrlə müsahibə və ya ilkin tədqiqat təklifinin müzakirəsi.
5) Seçimlərin uyğunluq və şəffaflıq meyarları əsasında qiymətləndirilməsi.
6) Mövzuların və elmi rəhbərlərin təsdiq edilməsi.
7) Nəticələrin tələbələrə bildirilməsi və qeydiyyata alınması.

6.5. Eyni mövzuya bir neçə tələbənin müraciət etdiyi hallarda qərar əvvəlcədən elan edilmiş meyarlar əsasında verilir. Bu zaman tələbənin elmi marağı, ilkin hazırlığı, təqdim etdiyi tədqiqat təklifi, mövzunun xüsusiyyətləri və elmi rəhbərin iş yükü nəzərə alına bilər.
6.6. Tələbələrin mövzu seçimində bərabər imkanları təmin edilməli, ayrı-seçkiliyə, şəxsi münasibətlərə və qeyri-şəffaf üstünlüklərə yol verilməməlidir.
6.7. Tələbənin təklif etdiyi alternativ mövzu da qəbul edilə bilər. Bunun üçün mövzu elmi rəhbər tərəfindən dəstəklənməli, kafedra tərəfindən qiymətləndirilməli və müəyyən edilmiş qaydada təsdiq edilməlidir.
6.8. Mövzu seçimi zamanı tələbənin əsaslandırılmış maraqları ilə mövcud elmi rəhbərlik imkanları arasında uyğunluq yaradılmalıdır.
6.9. Tələbəyə mövzu və ya elmi rəhbər təyin edilməsinin nəticələri rəsmi qaydada bildirilməli, zəruri olduqda qərarın əsaslandırılması təqdim edilməlidir.
6.10. Müasir elmi prioritetlərə və innovativ yanaşmalara uyğun olaraq, fənlərarası xarakter daşıyan və ya kompleks həll tələb edən elmi-tədqiqat işləri iki və ya daha çox tələbədən ibarət fənlərarası tədqiqat qrupları tərəfindən birgə icra edilə bilər.
6.11. Mövzu bölgüsü zamanı yaranan mübahisələrə kafedra müdiri və ya müvafiq komissiya tərəfindən baxılır.

VII. KOLLEKTİV VƏ FƏNLƏRARASI TƏDQİQATLARIN TƏŞKİLİ

7.1. Tədqiqat mövzusunun idarəsi, elmi problemin kompleksliyi, tətbiqi və tələb olunan metodologiya sahəsi götürülməklə kollektiv və ya fənlərarası tədqiqatların təşkili mümkündür. Bu tədqiqatlarda ixtisasların, fənlərin və elmi istiqamətlərin bilik və metodlarından birgə istifadə oluna bilər.
7.2. Fənlərarası xarakter daşıyan və ya kompleks həllər tələb edən elmi-tədqiqat işləri iki və ya daha çox tələbədən ibarət tədqiqat qrupları birlikdə icra edilə bilər. Tədqiqat qrupunun üzvlərin sayı tədqiqatın məqsədi, həcm və metodoloji ehtiyacları nəzərə alınaraq müəyyən edilir.
7.3. Fənlərarası və ya kompleks tədqiqat mövzularında (məsələn, hüquq və iqtisadiyyat, tibb və biotexologiya) müxtəlif kafedralardan elmi rəhbərlər təyin edilə bilər. Bu halda tədqiqat mövzusundan asılı olaraq bir elmi rəhbər əsas, digər(lər)i ko-rəhbər və ya məsləhətçi qismində çıxış edilə bilər.
7.4. Kollektiv və fənlərarası tədqiqatlar üzrə iştirakçılar arasında iş bölgüsü tədqiqatın başlanğıcında razılaşdırılmalıdır.
7.5. Kollektiv və fənlərarası tədqiqatlar üzrə elmi-tədqiqat işinin ümumi nəticələri birgə hazırlanır və hər bir tələbənin fərdi töhfəsindən istifadə edilməlidir.
7.6. Kollektiv və fənlərarası tədqiqatlarda elmi rəhbərlər və ya ko-rəhbərlər arasında iş bölgüsü və məsləhətləşmələrin təşkili razılaşdırılmalıdır. Tədqiqatın gedişi, metodologiyası və aralıq nəticələrinə görə həyata keçirilməsi təmin edilir, yaranan fikir ayrı-ayrılıqda elmi müzakirə yolu ilə həll edilir.
7.7. Kollektiv və fənlərarsı tədqiqatlarla bağlı digər bütün məsələlər Təlimatın bu sahədə nəzərdə tutduğu ümumi yanaşmalara uyğun aparılır.

VIII. ELMİ RƏHBƏR(LƏR)İN TƏYİN EDİLMƏSİ VƏ ÖHDƏLİKLƏRİ

8.1. Elmi rəhbər tələbənin mövzusu üzrə müvafiq akademik hazırlığa, peşə təcrübəsinə və ya əsaslandırılmış elmi səriştəyə malik olmalıdır.
8.2. Elmi rəhbər aşağıdakı öhdəlikləri daşıyır:

a) tələbəyə tədqiqat problemini dəqiqləşdirməkdə kömək etmək;
b) məqsəd, vəzifələr və tədqiqat suallarının formalaşdırılmasını istiqamətləndirmək;
c) uyğun metodologiyanın seçilməsi üzrə məsləhət vermək;
d) ilkin ədəbiyyat və etibarlı məlumat mənbələri barədə istiqamət göstərmək;
e) tədqiqat planının hazırlanmasına kömək etmək;
f) tələbə ilə müntəzəm məsləhətləşmələr keçirmək;
g) aralıq nəticələri nəzərdən keçirmək və rəy vermək;
h) akademik dürüstlük və tədqiqat etikası qaydalarını izah etmək;
i) riskləri, gecikmələri və metodoloji problemləri vaxtında müəyyənləşdirmək;
j) yekun işin elmi keyfiyyəti barədə rəy bildirmək;
k) elmi tədqiqatın nəticələrinin jurnal və ya konfranslarda dərc edilməsini təmin etmək.

8.3. Elmi rəhbər tələbənin əvəzinə tədqiqat aparmamalı, məlumatları toplamamalı və ya təhlil etməməli, işin əsas hissələrini tələbənin adından yazmamalıdır.

8.4. Elmi rəhbər tədqiqatın keyfiyyətini yüksəltmək məqsədilə düzəlişlər təklif edə bilər. Bu düzəlişlər tələbənin müstəqil elmi fəaliyyətini əvəz etməməlidir.
8.5. Elmi rəhbər tələbənin bütün müraciətlərinə dərhal cavab verməyə borclu olmasa da, məsləhətləşmələr üçün əvvəlcədən razılaşdırılmış və ağlabatan müddət çərçivəsində əlçatan olmalıdır.
8.6. Elmi rəhbər tədqiqatda maraqlar toqquşması yarandıqda bu barədə kafedra rəhbərliyinə məlumat verməlidir.
8.7. Elmi rəhbərin dəyişdirilməsi əsaslandırılmış müraciət, iş yükü, maraqlar toqquşması, rəhbərliyin davam etdirilməsinin mümkünsüzlüyü və ya digər ciddi səbəblər olduqda nəzərdən keçirilir.
8.8. Tədqiqatın gedişatında xarakterindən, mürəkkəbliyindən və ya spetsifikliyindən asılı olaraq, əsas elmi rəhbərlə yanaşı ikinci elmi rəhbər (ko-rəhbər) və ya köməkçi elmi rəhbər təyin edilə bilər. Bu halda müvafiq kafedra tərəfindən TEC-nə arayış təqdim olunmalıdır.
8.9. Yüksək akademik göstəricilərə və elmi-tədqiqat təcrübəsinə malik magistrantlar və ya doktorantlar bakalavriat səviyyəsində təhsilalan tələbələrə elmi-metodiki dəstək göstərmək və tədqiqat vərdişləri aşılamaq məqsədilə köməkçi elmi rəhbər (mentor) kimi cəlb oluna bilərlər.
8.10. Elmi tədqiqatın səmərəli şəkildə yerinə yetirilməsi məqsədilə sənayedən və digər müəssisə və təşkilatlardan qarşılıqlı razılıq əsasında köməkçi elmi rəhbər təyin edilə bilər.
8.11. Köməkçi elmi rəhbərlər (və ya sənaye mütəxəssisləri) əsas elmi rəhbərlə razılaşdırılmış çərçivədə tələbəyə praktiki, metodoloji və texniki məsləhətlər verir, lakin akademik və hüquqi məsuliyyət əsas elmi rəhbərin üzərində qalır.

IX. TƏLƏBƏNİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

9.1. Tələbə tədqiqat mövzusunu və elmi rəhbəri ilə bağlı qərarları müəyyən edilmiş prosedur çərçivəsində öyrənmək, elmi məsləhət almaq və əsaslandırılmış müraciətlər təqdim etmək hüququna malikdir.
9.2. Tələbənin əsas öhdəlikləri aşağıdakılardır:
a) təsdiqlənmiş mövzu üzrə müstəqil araşdırma aparmaq;
b) tədqiqat planına və razılaşdırılmış müddətlərə riayət etmək;
c) elmi rəhbərlə müntəzəm əlaqə saxlamaq;
d) istifadə etdiyi bütün mənbələri düzgün göstərmək;
e) məlumatların həqiqiliyini və nəticələrin etibarlılığını qorumaq;
f) etik və hüquqi tələblərə əməl etmək;
g) aralıq hesabatları və yekun nəticələri vaxtında təqdim etmək;
h) tədqiqat materiallarını və ilkin məlumatları tələb olunduqda təqdim etmək;
i) istifadə etdiyi rəqəmsal və süni intellekt alətləri barədə müəyyən edilmiş qaydada məlumat vermək;
j) tədqiqat zamanı aşkar edilmiş ciddi səhvləri, məlumat itkisini və ya etik riskləri rəhbərinə bildirmək;
k) tədqiqatın nəticələrini jurnal və ya konfranslarda dərc etmək.
9.3. Tələbə elmi rəhbərin əsaslandırılmış metodoloji tövsiyələrini nəzərə almalı, lakin elmi cəhətdən əsaslandırılmış alternativ yanaşmalarını müzakirə etmək hüququnu saxlamalıdır.
9.4. Tələbə tədqiqatın bütün mərhələlərində müəllif məsuliyyətini daşıyır. Elmi rəhbərin razılığı və ya rəyi tələbənin akademik dürüstlük üzrə şəxsi məsuliyyətini aradan qaldırmır.

X. TƏDQİQATIN PLANLAŞDIRILMASI VƏ İCRA MƏRHƏLƏLƏRİ

10.1. Təsdiqlənmiş hər bir mövzu üzrə tələbə və elmi rəhbər tədqiqat planı hazırlayırlar.
10.2. Tədqiqat planında aşağıdakılar göstərilməlidir:
a) tədqiqatın məqsədi və vəzifələri;
b) tədqiqat sualları və ya hipotezlər, uyğun olduğu hallarda;
c) nəzərdə tutulan metodologiya;
d) əsas icra mərhələləri;
e) mərhələlər üzrə son tarixlər;
f) gözlənilən aralıq nəticələr;
g) tələb olunan resurslar;
h) mümkün risklər və onların idarə edilməsi;
i) yekun nəticələrin təqdimetmə forması.
10.3. Tədqiqat prosesi, bir qayda olaraq, aşağıdakı mərhələlərdən ibarət olur:
a) Mövzunun seçilməsi və təsdiqi.
b) İlkin ədəbiyyat axtarışı və problemin dəqiqləşdirilməsi.
c) Tədqiqat təklifinin hazırlanması.
d) Metodologiyanın müəyyənləşdirilməsi.
e) Zəruri etik və digər icazələrin alınması.
f) Məlumatların toplanması və ya eksperimentlərin aparılması.

g) Məlumatların təhlili və nəticələrin yoxlanılması.
h) İşin ilkin variantının hazırlanması.
i) Elmi rəhbərin rəyi əsasında düzəlişlər.
j) Yekun işin təqdim edilməsi.
k) TEC-in Başlanğıc Konfransının bölmələrində təqdimat və müdafiə.
l) Elmi tədqiqatın nəticələrinin jurnal və ya konfranslarda dərc edilməsi.

10.4. Hər mərhələnin müddəti təhsil proqramının təqviminə, tədqiqatın mürəkkəbliyinə və mövcud resurslara uyğun müəyyən edilir.

10.5. Aralıq hesabatların sayı və təqdimetmə forması kafedra tərəfindən müəyyən edilə bilər. Minimum olaraq mövzunun və metodologiyanın təsdiqi, tədqiqatın gedişi və yekun nəticələr üzrə hesabatlılığın təmin edilməsi tövsiyə olunur.

10.6. Müddətlərə riayət etmək mümkün olmadıqda tələbə səbəbləri və təklif etdiyi yeni qrafiki əvvəlcədən elmi rəhbərə təqdim etməlidir.

10.7. Müddətlərin dəyişdirilməsi yalnız əsaslandırılmış səbəblər olduqda və səlahiyyətli şəxs tərəfindən təsdiq edildikdə mümkündür.

XI. ELMİ METODOLOGİYA VƏ NƏTİCƏLƏRİN KEYFİYYƏTİ

11.1. Tədqiqatın metodologiyası problemin xarakterinə və qoyulmuş tədqiqat suallarına uyğun seçilməlidir.

11.2. Tələbə istifadə etdiyi metodların seçilmə səbəblərini izah etməli, onların imkanlarını və məhdudiyyətlərini göstərməlidir.

11.3. Empirik tədqiqatlarda məlumatların toplanması, seçmə prinsipləri, ölçmə vasitələri və təhlil üsulları aydın şəkildə təsvir edilməlidir.

11.4. Eksperimental və laboratoriya işlərində təhlükəsizlik qaydalarına, avadanlığın istismar tələblərinə və müvafiq texniki standartlara əməl edilməlidir.

11.5. Məlumatların statistik və ya digər kəmiyyət təhlili aparıldıqda istifadə edilən üsulların uyğunluğu əsaslandırılmalı, nəticələr düzgün şərh edilməli və məhdudiyyətlər göstərilməlidir.

11.6. Tədqiqatın nəticələri əvvəlcədən gözlənilən nəticələrə uyğun gəlmədikdə, bu hal məlumatların dəyişdirilməsi və ya arzuolunmaz nəticələrin gizlədilməsi üçün əsas sayıla bilməz.

11.7. Tədqiqatın məhdudiyyətləri, metodoloji çətinlikləri və nəticələrin tətbiq sahəsi yekun işdə dürüst şəkildə açıqlanmalıdır.

XII. AKADEMİK DÜRÜSTLÜK VƏ TƏDQİQAT ETİKASI

12.1. Bütün iştirakçılar akademik dürüstlük prinsiplərinə əməl etməlidirlər.

12.2. Aşağıdakı hallar akademik dürüstlük pozuntusu hesab edilə bilər:

a) plagiat və mənbəsiz köçürmə;
b) özünün əvvəlki işinin müvafiq istinad olmadan təkrar istifadəsi və ya başqa formada təqdim edilməsi;
c) məlumatların saxtalaşdırılması və ya uydurulması;
d) nəticələrin qəsdən təhrif edilməsi;
e) başqa şəxsin işinin öz adı ilə təqdim edilməsi;
f) müəllifliyin əsassız mənimsənilməsi;
g) saxta mənbələrin, istinadların və ya biblioqrafik məlumatların yaradılması;
h) tədqiqat prosesində icazəsiz müdaxilə;
i) tədqiqat nəticələrinə təsir göstərən maraqlar toqquşmasının gizlədilməsi.

12.3. Tədqiqatda istifadə olunan mənbələr TEC-in müəyyən etdiyi istinad standartına uyğun göstərilməlidir. Konkret standart müəyyən edilmədikdə, sahəyə uyğun qəbul edilmiş elmi istinad üslubu seçilməli və bütün iş boyunca ardıcıl tətbiq olunmalıdır.

12.4. Şübhəli pozuntu aşkar edildikdə tələbədən izahat alınmalı, sübutlar araşdırılmalı və qərar müəssisənin akademik dürüstlük prosedurlarına uyğun qəbul edilməlidir.

12.5. Tələbə pozuntu ilə bağlı qərardan müəyyən edilmiş qaydada şikayət vermək hüququna malikdir.

12.6. Şəxsi və həssas məlumatlar, heyvanlar və ya potensial təhlükəli eksperimentlərlə bağlı tədqiqatlar müvafiq etik və hüquqi tələblərə uyğun aparılmalıdır.

12.7. İnsanlardan məlumat toplanan tədqiqatlarda, tətbiq olunan qaydalara uyğun olaraq, məlumatlandırılmış razılıq, könüllü iştirak, məxfiliyin qorunması və iştirakdan imtina hüququ təmin edilməlidir.

12.8. Etik icazə tələb olunan tədqiqatlara müvafiq icazə alınmadan başlanılmamalıdır.

XIII. SÜNİ İNTELLEKT ALƏTLƏRİNDƏN İSTİFADƏ

13.1. Süni intellekt və digər rəqəmsal alətlərdən tədqiqat suallarının ilkin formalaşdırılması, ədəbiyyat axtarışı, dil və üslub redaktəsi, proqramlaşdırma dəstəyi, məlumatların emalı və digər uyğun məqsədlərlə istifadə edilə bilər.

13.2. Süni intellekt alətlərindən istifadə tələbənin müstəqil elmi düşüncəsini, məlumatları yoxlamaq məsuliyyətini və müəllif öhdəliklərini əvəz etmir.
13.3. Tələbə süni intellekt tərəfindən yaradılmış faktları, istinadları, statistik nəticələri və digər məlumatları müstəqil şəkildə yoxlamalıdır. Mövcudluğu və məzmunu təsdiqlənməmiş mənbələr elmi işə daxil edilməməlidir.
13.4. Tədqiqatın qiymətləndirilməsinə və nəticələrin şərhinə əhəmiyyətli təsir göstərən süni intellekt istifadəsi müvafiq qaydada açıqlanmalıdır. Açıqlamada alətin adı, istifadə məqsədi və nəticələrə təsiri barədə məlumat verilməsi tövsiyə olunur.
13.5. Süni intellektin istifadəsinə dair konkret tələblər elmi sahənin xüsusiyyətlərinə, tapşırığın məqsədinə və müəssisənin təsdiq etdiyi qaydalara uyğun müəyyən edilir.
13.6. Süni intellekt alətlərindən istifadə edərkən məxfi, fərdi, kommersiya sirri təşkil edən və ya başqa qaydada qorunan məlumatların icazəsiz sistemlərə ötürülməsinə yol verilməməlidir.
13.7. Tələbə yekun tədqiqat işini təqdim edərkən elmi-tədqiqat işində hansı Generator Sİ alətlərindən hansı məqsədlə (dil redaktəsi, kodlaşdırma, data strukturlaşdırılması) istifadə edildiyi aydın göstərilməlidir. Bəyan edilməyən və gizlədilən Sİ istifadəsi akademik dürüstlük pozuntusu hesab olunur.

XIV. MƏLUMATLARIN, MƏXFİLİYİN VƏ ƏQLİ MÜLKİYYƏTİN QORUNMASI

14.1. Tədqiqat zamanı toplanmış şəxsi məlumatlar, məxfi sənədlər, müəssisə məlumatları və digər qorunan materiallar yalnız qanuni və müəyyən edilmiş məqsədlər üçün istifadə edilməlidir.
14.2. Məlumatların saxlanması, emalı, paylaşılması və məhv edilməsi müvafiq hüquqi tələblərə və müəssisənin informasiya təhlükəsizliyi qaydalarına uyğun həyata keçirilməlidir.
14.3. Tələbə tədqiqatın ilkin məlumatlarını, təhlil materiallarını, proqram kodunu, eksperiment qeydlərini və digər zəruri sübutları müəyyən edilmiş müddət ərzində saxlamalıdır.
14.4. İlkin məlumatların saxlanması və arxivləşdirilməsi tədqiqatın yoxlanıla bilməsini təmin etməli, lakin şəxsi və məxfi məlumatların qorunmasını pozmamalıdır.
14.5. Tədqiqat nəticələrinə, proqram təminatına, ixtiralara, məlumat bazalarına və digər əqli fəaliyyət məhsullarına dair müəlliflik və istifadə hüquqları qüvvədə olan qanunvericiliyə, müqavilələrə və müəssisənin daxili qaydalarına uyğun müəyyən edilir.
14.6. Elmi rəhbər olmaq avtomatik olaraq tədqiqatın həmmüəllifi olmaq hüququ yaratmır. Həmmüəlliflik real elmi töhfəyə və tətbiq olunan müəlliflik meyarlarına əsaslanmalıdır.
14.7. Tədqiqat nəticələrinin konfransda, jurnalda, repozitoriyada və ya digər platformada dərc edilməsi zamanı bütün müəlliflərin töhfələri, müvafiq icazələr və məxfilik məhdudiyyətləri nəzərə alınmalıdır.
14.8. Tətbiqi və innovativ mahiyyət daşıyan, kommersiyalaşma potensialı olan elmi-tədqiqat işlərinin nəticələri universitetin müvafiq struktur bölməsinə yönləndirilir. Bu zaman patenti və ya müəlliflik hüququnu qorumaq üçün universitet müvafiq hüquqi və təşkilati dəstəyini təmin edir.

XV. ARALIQ NƏZARƏT VƏ ELMİ RƏHBƏRLİYİN SƏNƏDLƏŞDİRİLMƏSİ

15.1. Elmi rəhbər tədqiqatın gedişinə müəyyən edilmiş qrafik üzrə nəzarət edir və tələbənin tədqiqatına müntəzəm rəy verir.
15.2. Aralıq nəzarət zamanı aşağıdakılar qiymətləndirilir:

a) iş planına uyğunluq;
b) ədəbiyyat bazasının yetərliliyi;
c) metodologiyanın düzgünlüyü;
d) məlumatların toplanması və təhlilin gedişi;
e) elmi nəticələrin əsaslandırılması;
f) akademik dürüstlük tələblərinə riayət;
g) risklər və gecikmələr.

15.3. Tədqiqatda ciddi gecikmə, metodoloji uyğunsuzluq və ya etik problem aşkar edildikdə tələbəyə yazılı tövsiyələr verilir və zəruri hallarda düzəliş planı hazırlanır.
15.4. Aralıq nəzarətin məqsədi tədqiqatın aparılması zamanı meydana gələn problemləri vaxtında aşkar etmək və tədqiqatın keyfiyyətini yüksəltməkdir.
15.5. Tələbə elmi-tədqiqat işlərinin icrasına mütəmadi və hesabatlı nəzarəti təmin etmək məqsədilə, müvafiq kafedralar hər ilin yanvar və mart aylarında keçirilən kafedra iclaslarının gündəliyinə TEC işlərinin yerinə yetirilmə vəziyyəti ilə bağlı məsələ daxil etməlidir. Müzakirənin nəticəsi olaraq, tələbələrin adlı siyahısı və hər bir tədqiqat işinin icra statusu (vəziyyəti) əks olunmaqla, kafedra iclasının protokolundan çıxarış rəsmi qaydada Universitetin Tələbə Elmi Cəmiyyətinə təqdim edilməlidir.

XVI. ELMİ TƏDQİQATIN NƏTİCƏLƏRİNİN TƏQDİMİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

16.1. Tələbə elmi tədqiqat işinin nəticələri müəyyən edilmiş müddətdə, təsdiqlənmiş mövzuya uyğun və müəssisənin texniki tələblərinə əsasən təqdim edilir.

16.2. Tələbə elmi tədqiqat işinin strukturuna, tədqiqatın xarakterindən asılı olaraq, aşağıdakı elementlər daxil edilə bilər:

a) titul səhifəsi;
b) xülasə və açar sözlər;
c) giriş;
d) metodologiya;
e) tədqiqatın əsas hissəsi;
f) nəticələr və müzakirə;
g) yekun nəticə və tövsiyələr;
h) istifadə olunmuş ədəbiyyat;
i) zərurət yaranarsa, əlavələr;
j) süni intellekt alətlərindən istifadəyə dair bəyanat.

16.3. Struktur və həcm tələbləri ixtisasın xüsusiyyətlərinə və tədqiqatın növünə uyğun müəyyən edilir. Bütün sahələr üçün eyni həcm və formatın məcburi tətbiqi məqsədəuyğun hesab edilmir.

16.4. Tələbə elmi tədqiqat işinin qiymətləndirilməsi Təminata edilmiş 1 saylı Əlavə ilə aparılır və bu meyarlar mövcud şəraitlə bağlı TEC sədri tərəfindən dəyişdirilə bilər.

16.5. Qiymətləndirmə meyarları tələbələrə TEC-in Başlanğıc Konfransının öz işinə başlayacağı gündən ən azı 2 həftə əvvəl açıqlanmalıdır.

16.6. Qiymətləndirmə nəticəsindən narazı olan tələbə 1 həftə müddətdə və qaydada apellyasiya müraciəti edə bilər.

XVII. MÖVZUNUN VƏ ELMİ RƏHBƏRİN DƏYİŞDİRİLMƏSİ VƏ MÜDDƏTLƏRİN UZADILMASI

17.1. Mövzunun dəyişdirilməsinə yalnız əsaslandırılmış hallarda, o cümlədən ilkin problemin tədqiqə yararsız olması, məlumatların əlçatmazlığı, metodoloji maneələr və ya əhəmiyyətli elmi zərurət yarandıqda yol verilir.

17.2. Mövzu dəyişikliyi tələbənin müraciəti, elmi rəhbərin rəyi və kafedra iclasının qərarı əsasında rəsmiləşdirilir.

17.3. Mövzunun dəyişdirilməsi zamanı yeni mövzunun məqsədi, müddəti, resurs ehtiyacları və əvvəlki işin hansı hissələrinin istifadə oluna biləcəyi müəyyənləşdirilir.

17.4. Elmi rəhbərin dəyişdirilməsi zəruri olduqda əvvəlki rəhbər tərəfindən toplanmış iş materiallarının təhlükəsiz və məxfilik tələblərinə uyğun təhvil verilməsi təmin edilir.

17.5. Xəstəlik, fövqəladə hallar, laboratoriya və ya məlumat bazasına çıxışın itirilməsi və digər əsaslandırılmış səbəblər olduqda müddətlərin uzadılması məsələsinə fərdi qaydada baxıla bilər.

XVIII. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

18.1. Tədqiqatın başlanğıcında elmi rəhbər və tələbə əsas riskləri müəyyən etməli və onların azaldılması üçün tədbirləri nəzərdən keçirməlidirlər.

18.2. Risklərə məlumatların əlçatan olmaması, avadanlığın nasazlığı, metodologiyanın nəticə verməməsi, etik icazələrin gecikməsi, məlumat itkisi və maraqlar toqquşması daxil ola bilər.

18.3. Elmi rəhbər və tələbə arasında fikir ayrılığı yarandıqda ilk növbədə məsələ elmi müzakirə və qarşılıqlı razılaşma yolu ilə həll edilməlidir.

18.4. Razılıq əldə olunmadıqda tərəflər kafedra müdirinə və ya TEC-ə müraciət edə bilərlər.

18.5. Şikayət və müraciətlərə baxılarkən tərəflərin mövqeləri dinlənilməli, qərəzsizlik qorunmalı və qərar əsaslandırılmalıdır.

18.6. Akademik dürüstlük pozuntuları, etik məsələlər və qiymətləndirmə ilə bağlı şikayətlər aidiyyəti üzrə fərqli prosedurlarla araşdırıla bilər.

XIX. KAFEDRANIN VƏ MÜVAFİQ STRUKTUR BÖLMƏLƏRİNİN MƏSULİYYƏTİ

19.1. Kafedra və ya müvafiq struktur bölmə:

a) mövzu bankının formalaşdırılmasını təşkil edir;
b) təklif olunan mövzuların keyfiyyətini nəzərdən keçirir;
c) mövzuların şəffaf bölgüsünü təmin edir;
d) elmi rəhbərlərin iş yükünü izləyir;
e) tədqiqat planlarının və aralıq hesabatların təqdim edilməsinə nəzarət edir;
f) zəruri metodiki və informasiya dəstəyini təşkil edir;

g) akademik dürüstlük və tədqiqat etikası tələblərinin tətbiqinə kömək edir;

h) tələbə elmi tədqiqat işlərinin qiymətləndirilməsi və arxivləşdirilməsi prosesini təşkil edir;

i) aşkar edilmiş sistemli problemlər barədə aidiyyatı üzrə məlumat verir.

19.2. Kafedra və ya səlahiyyətli struktur bölmə mövzu seçimi, elmi rəhbərlik yükü, tədqiqatların icra vəziyyəti və yekun nəticələr barədə ümumiləşdirilmiş hesabatlar hazırlaya bilər.

19.3. Tədqiqatların idarə olunması üçün elektron sistemdən istifadə edildikdə məlumatların dəqiqliyi, giriş hüquqları, ehtiyat nüsxələrin saxlanması və məlumat təhlükəsizliyi təmin edilməlidir.

XX. MONİTORİNQ, KEYFİYYƏTİN TƏMİN EDİLMƏSİ VƏ İNKİŞAF

20.1.Təlimatın tətbiqinin effektivliyi mütəmadi olaraq qiymətləndirilməlidir.

20.2. Monitorinq zamanı aşağıdakı göstəricilərdən istifadə oluna bilər:

a) təsdiqlənmiş mövzuların ixtisaslara uyğunluğu;
b) mövzuların vaxtında bölüşdürülməsi;
c) tədqiqatların vaxtında tamamlanma faizi;
d) tələbə və elmi rəhbərlərin məmnunluq səviyyəsi;
e) tədqiqatların elmi və praktiki nəticələri;
f) akademik dürüstlük və etik uyğunluq göstəriciləri;
g) tələbələrin konfranslarda, müsabiqələrdə və nəşrlərdə iştirakı;
h) tədqiqat nəticələrinin praktikada tətbiqi;
i) aşkar edilmiş problemlərin aradan qaldırılması müddəti.

20.3. Göstəricilər yalnız say göstəricilərinə əsaslanmamalı, tədqiqatların məzmun keyfiyyəti və real elmi töhfəsi də nəzərə alınmalıdır.

20.4. Monitorinqin nəticələrinə əsasən mövzu seçimi, elmi rəhbərlik, metodiki dəstək və qiymətləndirmə prosedurlarının təkmilləşdirilməsi üzrə tədbirlər görülə bilər.

XXI. TƏLƏBƏ ELMİ CƏMİYYƏTİNİN BAŞLANĞIC KONFRANSI

21.1. Tələbə Elmi Cəmiyyətinin Başlanğıc Konfransı hər tədris ilinin aprel ayının ortalarında təşkil olunur və TEC-in illik elmi fəaliyyətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsinə, tələbələrin elmi-tədqiqat fəaliyyətinin təqdim edilməsinə və qiymətləndirilməsinin ilkin mərhələsinin həyata keçirilməsinə xidmət edir.

21.2. TEC-in sədri Başlanğıc Konfransında müvafiq tədris ili üzrə tələbələrin elmi-tədqiqat fəaliyyətinin əsas istiqamətləri, nəzərdə tutulan tədbirlər, tədqiqatların icra vəziyyəti və qarşıda duran vəzifələr barədə məruzə və təqdimatla çıxış edir.

21.3. Konfrans çərçivəsində, bir qayda olaraq, üç və ya dörd məruzənin dinlənilməsi və müvafiq təqdimatların keçirilməsi nəzərdə tutulur. Başlanğıc Konfransının proqramı hazırlanarkən ilin aktual elmi mövzuları, cəmiyyəti maraqlandıran mühüm məsələlər, müasir dövrün çağırışları və universitetin elmi fəaliyyətində prioritet hesab edilən istiqamətlər üzrə tədqiqat aparmış tələbələrin çıxışlarına üstünlük verilir. Konfransın proqramına uyğun olaraq, tələbələrin elmi nailiyyətlərini, tədqiqat nəticələrini və elmi yaradıcılıq fəaliyyətini əks etdirən sərgilər də təşkil edilə bilər.

21.4. TEC-in Başlanğıc Konfransının Plenar iclasından sonra müvafiq elmi istiqamətlər üzrə bölmələrdə (kafedralarda) davam etdirilir. Bölmələrdə tələbələr müvafiq elmi-tədqiqat işləri üzrə çıxış edirlər. Hər bir tələbənin çıxışı üçün 5–7 dəqiqə vaxt ayrılır.

21.5. Tələbə ayrılmış vaxt ərzində elmi-tədqiqat işinin məqsədini, problemin qoyuluşunu, tədqiqatın metodologiyasını, aparılma gedişatını, əldə olunmuş əsas nəticələri və işin elmi əhəmiyyətini qısa, aydın və ardıcıl şəkildə təqdim etməlidir.

21.6. Bölmələrdə iştirak edən bütün tələbələrin çıxışları dinlənilməlidir. Tələbənin müsabiqədən kənarlaşdırılmasına və ya onun çıxışının dinlənilməsindən imtina edilməsinə yol verilmir. Hər bir iştirakçıya elmi-tədqiqat işini təqdim etmək və müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilmək üçün bərabər şərait yaradılmalıdır.

21.7. Bölmə üzrə çıxışlar zamanı təqdim olunan elmi-tədqiqat işləri müəyyən edilmiş qiymətləndirmə meyarları əsasında qiymətləndirilir. Hər bir bölmə üzrə birinci yer, ikinci yer və iki üçüncü yer müəyyən edilir. Yerlərin müəyyənləşdirilməsi iştirakçıların qiymətləndirmə nəticələrinə və topladıqları ballara əsasən həyata keçirilir.

21.8. Bölmədə qiymətləndirmədə iştirak edən münsiflərin hər biri TEC tərəfindən hazırlanmış qiymətləndirmə blankını müstəqil şəkildə doldurur. Qiymətləndirmə blanklarının doldurulması və balların hesablanması qiymətləndirmə blankının doldurulması üzrə təlimata uyğun həyata keçirilir.

21.9. Qiymətləndirmə başa çatdıqdan sonra hər bir iştirakçıya aid doldurulmuş qiymətləndirmə blankı müvafiq kafedra iclasının protokolundan çıxarışla birlikdə TEC-ə təqdim edilir. Sənədlərin vaxtında, tam və düzgün şəkildə təhvil verilməsinə müvafiq kafedra və ya bölmə üzrə məsul şəxslər cavabdehdirlər.
21.10. Kafedra və bölmə mərhələsində seçilmiş tələbələr növbəti mərhələdə – universitet turunda iştirak etmək hüququ əldə edirlər. Universitet turu birbaşa olaraq TEC tərəfindən təşkil olunur və universitetin "Elmi fəaliyyətinin qiymətləndirilməsi Komissiyası" tərəfindən həyata keçirilir.
21.11. Universitet turunda tələbələrin elmi-tədqiqat işlərinin qiymətləndirilməsi TEC tərəfindən müəyyən edilmiş meyarları əsasında aparılır. Bu mərhələdə tələbələr tədqiqat mövzularını 10 dəqiqə ərzində təqdim edirlər. Qiymətləndirmənin obyektivliyinin və qərəzsizliyinin təmin edilməsi məqsədilə komissiyanın qiymətləndirməsi konfidensial qaydada aparılır, tələbələrin nəticələri isə müvafiq meyarlar və toplanmış ballar əsasında müəyyən edilir.
21.12. Universitet turunun nəticələrinə əsasən iştirakçılar müvafiq fakültə üzrə birinci, ikinci və iki üçüncü yer olmaqla (zərurət yarandığı təqdirdə həvəsləndirici yerlər də müəyyən edilə bilər) topladıqları ballara uyğun olaraq sıralanır. Universitet turunun nəticələri, qiymətləndirmə sənədləri və qaliblərin siyahısı TEC tərəfindən müvafiq qaydada rəsmiləşdirilərək yekunlaşdırılır və TEC-in Yekun Konfransında elan edilir.

XXII. TƏLƏBƏ ELMİ CƏMİYYƏTİNİN YEKUN KONFRANSI

22.1. Tələbə Elmi Cəmiyyətinin Yekun Konfransı hər tədris ilinin may ayının ikinci həftəsində tədris ili ərzində həyata keçirilmiş elmi-tədqiqat fəaliyyətinin nəticələrinin ümumiləşdirilməsi, tələbələrin elmi nailiyyətlərinin təqdim olunması, qiymətləndirmə mərhələlərinin nəticələrinin elan edilməsi və fərqlənmiş tələbələrin mükafatlandırılması məqsədilə təşkil olunur.
22.2. Yekun Konfransında TEC-in sədri müvafiq tədris ili ərzində tələbələrin elmi-tədqiqat fəaliyyətinin vəziyyəti, həyata keçirilmiş tədbirlər, tədqiqatların icra səviyyəsi, əldə olunmuş nəticələr, keçirilmiş bölmə və universitet turlarının yekunları, habelə növbəti tədris ili üçün nəzərdə tutulan əsas istiqamətlər barədə məruzə və təqdimatla çıxış edir.
22.3. Bağlanış Konfransının proqramına uyğun olaraq, kafedra və bölmələr üzrə keçirilmiş müsabiqələrin, eləcə də universitet turunun nəticələri ümumiləşdirilir və iştirakçıların topladıqları ballar əsasında müəyyən edilmiş qaliblərin yekun siyahısı elan olunur.
22.4. Universitet turunda tutduqları yerlərə uyğun olaraq qalib gəlmiş tələbələrə müvafiq diplomlar və mükafatlar təqdim edilir. Universitet üzrə ən yüksək nəticə göstərmiş ilk üç tələbənin xüsusi mükafatlarla və ya qiymətli hədiyyələrlə təltif olunması təmin edilir.
22.5. Yekun Konfrans TEC-in müvafiq tədris ili üzrə fəaliyyətinin yekunlaşdırılması, tələbələrin elmi-tədqiqat fəaliyyətinə marağının artırılması, elmi nailiyyətlərin təşviqi və növbəti tədris ili üçün prioritetlərin müəyyənləşdirilməsi baxımından yekun tədbir hesab olunur.
22.6. Bağlanış Konfransının nəticələri əsasında TEC-in illik elmi fəaliyyətinə dair müvafiq məlumatlar ümumiləşdirilir və növbəti tədris ili üçün elmi-tədqiqat fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlanır.

XXIII. YEKUN MÜDDƏALAR

23.1. Bu Təlimat təsdiq edildiyi tarixdən qüvvəyə minir.
23.2. Təlimatın tətbiqi zamanı yaranan və sənəddə birbaşa tənzimlənməyən məsələlər qüvvədə olan qanunvericilik və təhsil müəssisəsinin digər normativ sənədləri əsasında həll edilir.
23.3. Təlimata dəyişikliklər elmi-tədqiqat fəaliyyətinin inkişafı, normativ tələblərin yenilənməsi və tətbiq zamanı aşkar olunan ehtiyaclar nəzərə alınmaqla müəyyən edilmiş qaydada edilə bilər.
23.4. Təlimatın tələbləri müəllimlərə, elmi rəhbərlərə və digər aidiyyəti şəxslərə rəsmi qaydada çatdırılır.
23.5. Təlimatın icrasına nəzarət ali təhsil müəssisəsinin rəhbərliyi, TEC sədri və müəyyən etdiyi məsul struktur bölmə tərəfindən həyata keçirilir.